

# TƏRTƏR: DAVAMLI TƏRƏQQİNİN ÜNVANI

**Tərtər rayonu cəbhə bölgəsinə ən yaxın məsafədə yerləşən, buna baxmayaraq, bütün sahələrdə sürətli inkişafa malik olan bölgələrdən biridir. Dövlətimizin başçısı cənab İlham Əliyev pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirədə demişdir:**

"Tərtərdə pambıqçılıqda əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da, çox böyük işlər görülübdür, özü də nəzərə almalıyıq ki, bu, düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, Vətənə bağlılıqlarını göstərmişlər. 2016-cı ilin aprel döyüşləri zamanı tərtərlilərin hamısı bir nəfər kimi öz torpağını müdafiə etməyə qalxmışdılar".

Dövlət başçısı sözünə davam edərək deyib ki, bu böyük qəhrəmanlıqdır, Vətənə olan bağlılıqdır. Belə ağır vəziyyətdə işləmək və yüksək nəticə əldə etmək, doğrudan da, yüksək qiymətə layiqdir. Biz onu da yaxşı bilirik ki, bədnam qonşular Tərtərin suyunu da kəsiblər. Ona görə bu ağır vəziyyətdə, demək olar ki, susuz bir vəziyyətdə belə yüksək məhsuldarlığı əldə etmək, əlbəttə, yüksək qiymətə layiqdir. Mən ona görə rayonların adlarını çəkdim, hər kəs bilsin harada, nə qədər məhsuldarlıq var. Bəzi təsərrüfatlarda siz deyirsiniz ki, 40-50 sentner məhsul götürülübdür, deməli, biz bu hədəfə də yaxınlaşmalıyıq, ona görə növbəti səpin mövsümünə qədər bütün bu işlər geniş təhlil olunmalıdır. Harada ki, məhsuldarlıq yüksəkdir, təsərrüfatlarda orta məhsuldarlıqdan yüksəkdir, o təcrübə öyrənilməlidir. Ola bilər ki, zona müşavirələri də keçirilsin. Bu sahədə həm kadr hazırlığı, maarifləndirmə, həm də yeni texnologiyalar ən yüksək standartlara cavab verməlidir. Çünki bizim əlavə torpağımız yoxdur. Biz 100 min hektarı ancaq pambıqçılığa ayırmışıq və hesab edirik ki, bu , kifayətdir. Ancaq biz məhsuldarlıq hesabına tədarükü də artırmalıyıq.

Respublika Prezidentinin rayona doğma münasibətindən ruhlanan qəhrəman tərtərlilər, öz ata-baba yurdlarında yaşamağı hər yerdən üstün tuturlar. Vaxtilə rayondan köçüb getmiş sakinlər də öz vətənlərinə qayıdır, firavan həyat sürməyə davam edirlər. Dövlət başçısının tövsiyə və tapşırıqları Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun rəhbərliyi ilə uğurla icra olunur.

Ölkə Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ndan irəli gələn vəzifələr rayonda sürətlə həyata keçirilir.

Bir sıra irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi rayonun simasını gündən-günə dəyişərək müasir məkanlardan birinə çevirir. Rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahə özünün əsl inkişaf dövrünü yaşayır, istehsal olunan ekoloji təmiz, rəqabətədavamlı müxtəlif növ kənd təsərrüfatı məhsulları yerli bazarla yanaşı, respublikanın digər bazarlarında da bolluq yaradır. Bundan başqa, hər il Tərtərdən minlərlə ton ixracyönümlü kənd təsərrüfatı məhsulları ölkə hüdudlarından xarici ölkələrə ixrac olunur ki, bu da öz növbəsində respublikaya valyuta axınına zəmin yaradır. Eyni zamanda, insanların maddi rifah halının yüksəlməsinə stimul verir. Rayonda aqrar sahədə çalışanlara, eləcə də sahibkarlara münbit şərait yaradılmışdır. Dövlət tərəfindən verilən subsidiyalar, kənd təsərrüfat texnikaları ilə təminat, suvarma suyuna olan tələbatın ödənilməsi aqrar sektora olan marağı daha da artırır.

Cari ilin məhsulu üçün əkilmiş 10908.4 hektar taxıl sahəsi biçilmiş və 42352.3 ton məhsul istehsal edilmişdir. Hər hektardan orta məhsuldarlıq ötən ilə nisbətən 0.6 sentner artaraq 38.8 sentner olmuşdur. 7093.9 hektar buğda sahəsindən 29481.9 ton buğda, 3814.5 hektar arpa sahəsində 12870.4 ton arpa məhsulu istehsal olunmuşdur. Hər hektardan orta məhsuldarlıq buğda üzrə 41.6 sentner, arpa üzrə 33.7 sentner olmuşdur. Ötən ilə nisbətən buğdanın məhsuldarlığı 0.5 sentner, arpanın məhsuldarlığı 0.8 sentner artmışdır. Tərtər buğdanın məhsuldarlığına görə əvvəlki illərdə olduğu kimi, respublikada ön sıralardadır.

2019-cu ildə rayonda 3427.2 hektar sahədə pambıq əkilmişdir. 9 dekabr 2019-cu ilə olan məlumata görə, emal müəssisələrinə 11924 ton 736 kq pambıq məhsulu tədarük edilmişdir. Hər hektardan orta məhsuldarlıq rayon üzrə 34,8 sentnerdir. Sevindirici haldır ki, pambığın məhsuldarlığına görə Tərtər respublikada birinci yerdədir. Hələ sahələrdə məhsul boldur. Pambıq yığımı davam edir.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlət başçısı İlham Əliyev Tərtərə sonuncu səfəri zamanı pambıqçılarla söhbəti zamanı demişdir: "Hesab edirəm ki, Tərtər zəhmətkeşlərinin təcrübəsi digər bölgələrdə də tətbiq olunmalıdır. Çünki heç də hər bir rayonda məhsuldarlıq sizdə olduğu kimi deyil".



Pambıqçılığın inkişafını təmin etmək məqsədilə Tərtər Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin 41 hektar təcrübə sahəsində Yunanıstan alimlərinin təklif etdiyi layihənin icrası və yerli pambıq sortlarının nümayiş əkini üçün 4 hektar sahədə, elit toxumçuluğu üçün 31 hektar sahədə yerli Gəncə 110 sortu, 5 hektar sahədə Türkiyə sortu olan Bəyaz Altun sortu olmaqla 40 hektar sahədə pambıq, 1 hektar sahədə isə BJ-68 sortu olan soya təcrübə məqsədilə əkilmişdir. Əkilmiş təcrübə sahələrində tam bitiş əldə edilmiş, bütün aqrotexniki tədbirlərə tam riayət edilmişdir. Yığımına başlanılmış və Gəncə-110 elit reproduksiyalı sahədə və yunan texnologiyası ilə əkilmiş nümayiş əkinlərdən bu günədək 64.2 ton toxumluq xam pambıq yığılaraq P.AQRO MMC-nin Yevlax filialına təhvil verilmişdir.



Cari ildə 670.5 hektar sahədə şəkər çuğunduru əkilmişdir. Bu günədək 18 min ton məhsul götürülmüşdür.

Tərtər rayonu öz günəbaxan tumu ilə respublikada məşhurdur. Tərtər ölkədə ən çox günəbaxan əkən və istehsal edən rayondur. Cari ildə rayonda 2481.6 hektar günəbaxan sahələrindən 6471.9 ton günəbaxan dəni istehsal edilmişdir ki, hər hektardan orta məhsuldarlıq 26.1 sentner olmuşdur.

Mövsüm ərzində sahələrdən 4515.1 ton kartof, 14140.9 ton tərəvəz məhsulları toplanmışdır. Hər hektarın orta məhsuldarlığı kartof üzrə 0.6 sentner artaraq 112.7 sentner, tərəvəz üzrə isə 0.7 sentner artaraq 121.8 sentner olmuşdur.

Rayonda 175.5 hektar sahədən 886.9 ton qarğıdalı, 26.5 hektar sahədən 134.2 ton lobya, 45 hektar sahədən 112.9 ton noxud, 4 hektar sahədən 4 ton darı, 1 hektar sahədən 0.6 ton qarabaşaq məhsulu istehsal olunmuşdur.

Bundan başqa, rayonda 5973.8 ton müxtəlif növ meyvə və 1048.9 ton üzüm istehsal olunmuşdur. Meyvəçiliyin inkişafını təmin etmək məqsədilə cari ildə 84 hektar yeni meyvə bağları salınmışdır ki, ondan 58 hektarı intensiv bağlardır.

Məlum olduğu kimi, son illərdə ölkə Prezidentinin tapşırığına əsasən Azərbaycan üçün ənənəvi, gəlirli sahə sayılan ipəkçiliyin əvvəlki şöhrəti qaytarılır. Bu baxımdan cari ildə rayonda kümçülər 18.3 ton barama tədarük etmişlər. Barama tədarükü 2018-ci ilə nisbətən 79.1 faiz, son 4 ildə 19.1 dəfə artmışdır. Baramaçılığın inkişafını təmin etmək, yem bazası yaratmaq məqsədilə Tərtər Regional Aqrar Elm və İnnovasiya Mərkəzində Çindən gətirilmiş tinglərdən əldə edilmiş 20 min ədəd çəkil çiliyinin innovativ üsulla əkini aparılmış və becərilir.

Tərtərdə heyvandarlığın inkişaf etdirilməsinə də münbit şərait yaradılmışdır. Rayonda diri çəkidə 2502.4 ton ət, 18 min 273.1 ton süd, 11 milyon 630 min ədəd yumurta istehsal edilmişdir. 2018-ci ilin müvafiq dövrünə nisbətən diri çəkidə ət istehsalı 55.9 ton və ya 2.3 faiz, süd istehsalı 289.7 ton və ya 1.6 faiz, yumurta istehsalı 75 min ədəd və ya 0.6 faiz artmışdır.

Tərtər rayonunda 930 istehsalçıya emal müəssisələrinə istehsal edib təhvil verdikləri xam pambığa görə 800.3 min manat, şəkər çuğunduruna görə 320 istehsalçıya 120.0 min manat, arıçılıqla məşğul olan 356 fiziki şəxsə 6431 arı ailəsinə görə 64.3 min manat, barama istehsalı ilə məşğul olan 158 istehsalçıya 90.4 min manat dövlət büdcəsindən subsidiya ödənilmişdir. 2019-cu ilin sentyabr ayınadək süni mayalanma yolu ilə doğulan 882 baş buzova görə 88.2 min manat subsidiya hesablanmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda əkininə görə 6759 istehsalçıya 18894 hektar əkin sahəsinə və çoxillik əkmələrə görə 1199.4 min manat subsidiya verilmişdir.

Məlumdur ki, bol məhsulun əldə olunmasında bitkilərin vaxtlı-vaxtında suvarılma suyu ilə təminatı vacibdir. Bu baxımdan, Tərtər Suvarma Sistemləri İdarəsinin kollektivi üzərlərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Əkinlərin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 2019-cu ildə suvarma sistemlərində 6 ədəd hidrotexniki qurğu və 11 ədəd hidrotexniki post cari təmir edilmiş, 649 min kubmetr lildən təmizləmə işi aparılmış, daşqın və selə qarşı mübarizə məqsədilə 59 min kubmetr torpaq işləri görülmüş, kollektor və drenlərdə 52 min kubmetr lildən təmizləmə işləri aparılmışdır. İnvestisiya vəsaiti hesabına Qarağacı kəndində kanala 1000 metr beton üzlük çəkilmişdir. Buruc-Sarıcalı kanalının 200 metrli beton üzlük çəkilməsi üçün tam hazırlanmış və 130 metrinə beton üzlük çəkilmişdir.

Tərtərdə əhalinin rahat gediş-gəlişi üçün son illərdə müasir standartlara cavab verən avtomobil yolları çəkilir və bu işlər uğurla davam etdirilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Tərtər-Hindarx avtomobil yolunun Tərtər rayonunun ərazisindən keçən hissəsinin (19 km), uzunluğu 10 kilometr olan Sarov-Borsunlu kəndlərarası avtomobil yolunda və uzunluğu 5 kilometr olan Hacıqərvənd kəndarası avtomobil yolunda əsaslı təmir işləri başa çatmışdır. Hüsənli kəndində 2.5 km kəndarası yollara asfalt-beton örtüyü salınmışdır.



Qeyd etmək lazımdır ki, Tərtər şəhərində də yolların təmiri və yenidən qurulması da həyata keçirilir.

Rayonda respublika və yerli əhəmiyyətli avtomobil yollarında 2117.8 min manatlıq cari və saxlanma işləri görülmüşdür. 2019-cu ilin 9 ayı rayonumuzda tikinti-quraşdırma və abadlıq işləri davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Tərtər şəhərində rayon icra hakimiyyətinin inzibati binasının tikintisi davam etdirilir. Olimpiya İdman Kompleksinin və Bayraq Muzeyinin tikintisi başa çatdırılmışdır. Bundan başqa, Xalça İstehsalı Emalatxanası da tikilib istifadəyə verilmişdir.

Tərtər şəhərində Vəzir Orucov küçəsində küçə aqlay və digər bəzək daşları ilə üzlənmiş, küçələrdə yol kənarlarına bordürlər düzülmüş, yola asfalt örtüyü qoyulmuş, işıq, qaz, su-kanalizasiya və rabitə xətləri səliqəyə salınmış, yararsız işıq və rabitə dirəkləri yeniləri ilə əvəz edilmişdir. Hazırda şəhərin Bəsti Bağırova küçəsinin abadlaşdırılması üçün hazırlıq işləri görülür.

2019-cu ildə rayonda ekoloji tarazlığın qorunması məqsədilə Bərdə, Ağdam və Gəncə istiqamətində yol kənarlarına və rayonun yaşayış məntəqələrində, meşə zolaqlarında 27 mindən çox müxtəlif növ ağaclar, 4 min gül kolu və 700 min ədəd həmişəyaşıl kol əkilmişdir.

Tikintisi 2018-ci ildən başlayan Tərtər rayonunun Kovdadıq kəndində 20 şagird yerlik ibtidai və Zolgəran kəndində 56 şagird yerlik ümumi orta modul tipli məktəblərin tikinti işləri yekunlaşmışdır. 2019-cu ildə Bəyimsarov, Hüsənli kənd və 1 saylı şəhər tam orta məktəblərində cari təmir işləri aparılmışdır.

Rayon əhalisinin məşğulluğunun təmin edilməsi məqsədilə 1487 yeni iş yeri açılmışdır ki, onun da 628-i daimi iş yerləridir. Həmin iş yerlərinin 15-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 94-ü mövcud müəssisə və təşkilatlarda, 28-i fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 491-i fiziki şəxslər tərəfindən yaradılmışdır. Bundan başqa, 859 digər tədbirlər üzrə mövsümi iş yerləri açılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2018-ci il tarixli "Əhalinin içməli su təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncamına əsasən 2018-ci ildə Tərtər rayonunun daha 4 kəndində Evoğlu, Mamırlı, Poladlı, Təzəkənd əhalinin içməli su təminatının yaxşılaşdırılması üçün işlər başa çatmış və əhalinin istifadəsinə verilmişdir. Bu məqsədlə bu kəndlərin hər birində 1 ədəd olmaqla 4 ədəd subartezian quyusu qazılmış, su xətləri çəkilmiş, Mamırlı kəndində 100 kubmetrlik su anbarı tikilmiş və 33 bulaq, Evoğlu kəndində 50 kubmetrlik su çəni və 36 bulaq, Poladlı kəndində 17 kubmetrlik su çəni və 14 bulaq, Təzəkənd kəndində 16 kubmetrlik su çəni və 21 bulaq quraşdırılmışdır.



Əhalinin içməli su təminatını yaxşılaşdırmaq məqsədilə Tərtər şəhərinin 16 küçəsində və 5 kənd yaşayış məntəqələrində su xətlərində təmir-bərpa işləri aparılmış, 172 su xəttində olan qəza aradan qaldırılmış, 165 ədəd şəbəkə quyuları və kanalizasiya xətləri yuyulub təmizlənmişdir. Şıxarx qəsəbəsində köçkün şəhərciyində su anbarına xidmət edən 1 ədəd elektrik mühərriki təmir edilmiş, müxtəlif yaşayış məntəqələrində 2 ədəd yeni dərinlik nasosu quraşdırılmış, 3 ədəd isə təmir edilmişdir.

Əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün cari ilin 9 ayı ərzində 11905 metr müxtəlif diametrli kabeldən istifadə olunmuş, 8860 metr 0.4 kv-luq hava xətti təmir edilmiş, istifadəyə yararsız dayaqların yerinə 270 ədəd dəmir-beton dayaq və 75 ədəd metal dayaq basdırılmışdır. Rayonun Şıxarx qəsəbəsində yeni hava xəttinin çəkilişi üçün 13734 metr müxtəlif markalı SİB kabel və 370 ədəd 0.4 kv-luq dayaq alınmış və hava xətlərinin çəkilişi davam etdirilir.

Ümumilikdə rayonda 715 ədəd dayaq əkilmiş, 8860 metr naqil və 25639 metr müxtəlif ölçülü kabeldən istifadə olunaraq elektrik hava xətlərində təmir işləri aparılmışdır. İstismar müddətini başa vurmuş 7 ədəd transformator yenisi ilə əvəz edilmiş, 10 ədəd transformator təmir olunaraq istismara verilmişdir. 100 nəfər abonentə sayğac quraşdırılması üçün 21850 manat dəyərində material sərf olunmuşdur. Tərtər rayonunda əhali 100 faiz qazla təmin edilmişdir.

Tərtər Şəhər Kommunal Təsərrüfat İdarəsi tərəfindən hər gün 93.5 min kvadratmetr ərazi süpürülərək təmizlənmiş, 12 hektar yaşıllıq sahələrinə aqrotexniki xidmət göstərilmiş, küçələrdən, idarə və müəssisələrdən 15585 kubmetr məişət tullantıları daşınıb zərərsizləşdirilmişdir. İdarə tərəfindən cari ilin 9 ayı ərzində 212 min 680 manat məbləğində kommunal xidmət göstərilmişdir.

Mənzil İstehsalat Təmir İstismar Sahəsi 104 ictimai yaşayış binasında 1258 mənzildə yaşayan 4013 nəfər əhaliyə xidmət göstərmiş, 2019-cu ilin 9 ayı ərzində 14 min 650 manat kommunal xidmət haqqı yığmışdır. Çoxmənzilli binaların 60 min kvadratmetr binaətrafı əraziləri hər gün süpürülərək məişət tullantılarından təmizlənmiş, binaların zirzəmiləri 3500 kvadratmetr sahə təmizlənərək dezinfeksiya edilmiş, işıqlanma ilə təmin edilmişdir. Göründüyü kimi, Tərtər son illərdə bütün sahələrdə uğurlu nəticələrə imza atır, inkişaf edir və gözəlləşir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**